## 18 oktyabr Azərbaycanın Dövlət Müstəqilliyi günüdür!

# Müstəqilliyimiz tarixi nailiyyətimiz, ən böyük dəyərimiz, sərvətimizdir

## Şərqdə ilk demokratik respublikanın varisi olan müasir müstəqil Azərbaycan dövləti möhkəm əsaslar, milli maraqlar, zəngin dəyərlər üzərində qurulub

**Hər bir dövlətin milli özünüdərkinin və milli özünüifadəsinin fundamental əsasını ilkin şərt kimi dövlət müstəqilliyi təşkil edir. Müstəqil dövlət olmaq uğrunda daim mübarizə aparan, bu yolda şəhidlər versə də, varlığını qoruyan Azərbaycan xalqı XX əsrdə müstəqillik yolunda mübarizliyini artırmışdır.**



Respublika Günü münasibətilə keçirilən tədbirdə bu yolda xalqın göstərdiyi qətiyyəti müstəqillik tariximizin şanlı səhifəsi adlandıran, "Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması dünya miqyaslı tarixi hadisə idi. Çünki müsəlman aləmində ilk demokratik respublika yaradılmışdır. Biz fəxr edirik ki, bu tarixi Azərbaycan xalqı yazıb. Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması bir daha onu göstərir ki, Azərbaycan xalqı çox istedadlı, vətənpərvər və mütərəqqi xalqdır. Azərbaycan xalqı müstəqilliyə qovuşurdu" söyləyən Prezident İlham Əliyev ondan sonrakı dövrlərdə mövcud olan sovet imperiyasının avtoritar rejiminin yaratdığı fəsadları da bu sözlərlə xatırlatdı: "Sovet dövrü də mürəkkəb dövr idi, Azərbaycan müstəqil, azad deyildi." Çünki milli müstəqilliyin əsas qayəsi ilk növbədə müstəqil dövlətin qurulmasında, səmərəli fəaliyyətində ifadəsini tapır. Elə buna görə də bildirilir ki, milli müstəqilliyin fundamental əsası suverenlikdir.

Müstəqillik sevincini Azərbaycan xalqına bəxş edərək "Milli azadlığa nail olmaq üçün milli oyanış, milli dirçəliş, milli ruhun canlanması lazımdır. Azadlıq və istiqlaliyyət hər bir xalqın milli sərvətidir" söyləyən ulu öndər Heydər Əliyev vurğulayırdı ki, hər bir qurtuluşun əsasını milli azadlıq təşkil edir. Ümummilli Lider "Müstəqillik yolu qədər çətin yol yoxdur... Müstəqilliyin əldə olunması nə qədər çətindirsə, onun saxlanılması, daimi, əbədi olması bundan da çətindir" sözləri ilə hər bir xalqın suverenliyinin onun tarixi qələbəsi olduğunu müdrikliyi ilə təsdiqlədi.

Azadlığın, müstəqilliyin sevincini yaşamaq Azərbaycan xalqına ötən əsrin sonlarında qismət oldu. SSRİ-nin dağılması ilə yaranan tarixi şərait nəticəsində Azərbaycan dövlət müstəqilliyini bərpa etdi. 1991-ci il oktyabr ayında Azərbaycanın keçmiş Ali Sovetinin işə başlanan növbədənkənar sessiyasında aparılan müzakirələr yaddaşlarda əbədi qaldı. Ali Sovetin 18 oktyabr 1991-ci ildə keçirilən sessiyasında tarixi sənəd - Azərbaycanın Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı qəbul edildi.

Amma hələ də müstəqillik anlayışının nə olduğunu tam mənası ilə başa düşməyən , müstəqilliyin xalqın daxili tələbatı kimi meydana gəlməsi və ideoloji dəyərlərin formalaşması, milli düşüncə tərzi ilə nəticələnməsinin müqəddəsliyini dərk etməyən o zamankı rəhbərliyin ələbaxımlığı üzündən Azərbaycan xalqı özünü tam suveren bir ölkənin vətəndaşı kimi hiss edə bilmədi. Yaranan vətəndaş qarşıdurması nəticəsində respublikamız parçalanmaq təhlükəsi ilə üzləşdi. O çətin dövrdə xalqın təkidi ilə hakimiyyətə qayıdan Ulu Öndər Azərbaycanın xilaskarı kimi qətiyyətli addımlar atdı. Azərbaycanın dövlət müstəqilliyinin bərqərar olmasına xidmət edən milli ideyanı, azərbaycançılığı milli ideologiyamızın əsas şərtləri kimi müəyyənləşdirən ulu öndər Heydər Əliyev Azərbaycanın dövlət müstəqilliyinin əbədi qarantı oldu. Xalq inandı ki, azərbaycançılıq ideyasının hədəfi güclü, qüdrətli, demokratik Azərbaycan dövlətinin suverenliyidir. Başqa sözlə deyilsə, Azərbaycanın milli müstəqilliyi, suverenliyi ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır.

"1993-cü ildə xalqın tələbi ilə ulu öndər Heydər Əliyev hakimiyyətə qayıdandan sonra vəziyyət sabitləşdi. Əlbəttə, sabitlik başlıca şərt idi ki, Azərbaycan inkişaf etsin. Siyasi sabitlik, ondan sonra iqtisadi sabitlik təmin edildi. 1995-ci ildə müstəqil Azərbaycanın Konstitusiyası qəbul edilmişdir, siyasi, iqtisadi islahatlar aparılmağa başlanmışdır. Bir sözlə, o tarix - 1993-cü il müstəqil Azərbaycanın yeni dövrünün başlaması idi. Əslində müstəqilliyimiz məhz o vaxt başlamışdır. O dövrdən başlayaraq bu günə qədər Azərbaycan sürətlə inkişaf edir" söyləyən Prezident İlham Əliyev milli maraqların həyata keçirilməsində Ulu Öndərin müəyyənləşdirdiyi və bu gün də inamla davam etdirilən siyasəti bütün dövrlər üçün önəmli adlandırır.

...3 oktyabr 1993-cü ildə xalqın etimadı ilə Prezident seçilən ulu öndər Heydər Əliyev andiçmə mərasimində taleyüklü problemlərlə əhatə olunan Azərbaycanın əbədi qarantı olacağını inamla bildirərək vurğulayırdı ki, dövlət müstəqilliyini möhkəmləndirmək, müstəqil dövlət quruluşu, dövlət atributlarını yaratmaq və inkişaf etdirməklə vətəndaşların rifahının yaxşılaşdırılmasını fəaliyyətinin əsas prinsipləri kimi diqqətdə saxlayacaq. Təcrübəli dövlət və siyasi xadim kimi dünyada tanınan Heydər Əliyev yaxşı bilirdi ki, dövlət müstəqilliyini qorumaq, demokratiyanı inkişaf etdirmək, ölkənin bazar iqtisadiyyatı yolu ilə tərəqqisinə nail olmaq üçün ilk növbədə müstəqilliyin əbədiliyi təmin olunmalıdır.

Hələ Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri olarkən Azərbaycanın gələcək yolunun bazar iqtisadiyyatı və demokratiya ilə mümkünlüyünü həyata keçirdiyi islahatlarla bildirən Ulu Öndər ilk addım kimi aqrar sahədə bir neçə islahatlar apardı, sahibkarlığın təməli olan özəlləşdirmə siyasətini həyata keçirdi. Ali Məclisin sədri olarkən Azərbaycan Xalq Cümhuriyyətinin dövlət atributlarını- bayrağı, gerbi, himni bərpa etdi. Dünya Azərbaycanlılarının Həmrəylik Günü təsis olundu.

1991-ci ilin mart ayında SSRİ-nin saxlanılması ilə əlaqədar keçirilən referenduma "yox" deməklə Azərbaycanın suverenliyini müdrikliyi ilə qoruyan ulu öndər Heydər Əliyev bir daha müstəqilliyimizin əbədiliyini təmin etdi.

Tarix göstərdi ki, qarşıya qoyulan vəzifələrə nail olmaq üçün yorulmadan çalışan, siyasi, iqtisadi, sosial islahatları düzgün müəyyənləşdirən Ulu Öndərin fenomen bacarığı, dövlətçilik tariximizdəki missiyası, irsi, müqayisəyəgəlməz örnək xidmətləri təcrübə məktəbidir. Milli məfkurənin, təfəkkürün formalaşması, milli mənəvi dəyərlərin qorunması da Ulu Öndərin adı ilə bağlıdır. Ölkəmizdə söz, vicdan, əqidə azadlığı, insan hüquqlarının qorunması Heydər Əliyev dövlətçilik məktəbinin ənənələri və ayrılmaz tərkib hissəsidir. Həyatının mənasını, Azərbaycanın iqtisadi və intellektual potensialını xalqının xoşbəxt və firavan yaşamasına yönəldən Ulu Öndər tarixi şəxsiyyət kimi təkcə əməlləri ilə deyil, dolğun, məntiqli çıxışları, natiqlik məharəti ilə də insanların qəlbinə yol tapırdı. Bu bir həqiqətdir ki, zəruri, mükəmməl, qanunların qəbulu ilə kifayətlənməyən, müxtəlif istiqamətlərdə konkret fəaliyyət proqramlarının işlənib hazırlanması ilə ölkə iqtisadiyyatını yeni mərhələ üzrə inkişaf etdirən Heydər Əliyevin uzaqgörən siyasəti sayəsində Azərbaycan demokratik ölkə kimi əməkdaşlıq, sivilizasiyaların dialoq bölgəsinə çevrilmişdir.

"Biz demokratik, dünyəvi, sivilizasiyalı dövlət quraraq, bütün bəşəri dəyərlərdən istifadə edərək, ümumbəşəri dəyərlərin xalqımız üçün və milli mentalitetimiz üçün, mənəviyyatımız üçün uyğun cəhətləri götürüb tətbiq edərək heç vaxt dinimizdən, adət- ənənələrimizdən ayrıla bilmərik və imtina edə bilmərik" söyləyən ümummilli lider Heydər Əliyev Azərbaycanın demokratiya yolu ilə inkişafını gələcək üçün təminat hesab edərək fəaliyyətinin bütün dövrlərində əsas dayağı kimi xalqa arxalanırdı.

...Zaman göstərdi ki, adı həmişə Azərbaycanla bir çəkilən, tarixi şəxsiyyətlərimiz, milli qəhrəmanlarımız çox olsa da, onların arasında ən böyük hörmətə layiq olanlardan birincisi, müstəqilliyimizin əbədi qarantı Heydər Əliyevdir. Şərəfli bir ömür yolu keçərək şüurlu həyatını canından artıq sevdiyi Vətəninə və xalqına həsr edən Heydər Əliyev dövlətçilik təcrübəsi sayəsində qaragüruhçu qüvvələrə qalib gəlməyi bacardı. Azərbaycana rəhbərliyinin hər iki dönəmində dövlət müstəqilliyini qorumaq, demokratiyanı inkişaf etdirmək, ölkənin bazar iqtisadiyyatı yolu ilə tərəqqisinə şərait yaratmaq üçün siyasi bilik və bacarığına, dövlətçilik təcrübəsinə güvənən müdrik siyasətçi bir amal naminə çalışır, qarşısına qoyduğu vəzifələrin həlli yollarında xalqına güvəndiyini bildirirdi.

Müstəqil, tarazlı, cəsarətli siyasət yeridərək özünün qeyd etdiyi kimi, ömrünü Azərbaycan xalqının gələcəyinə həsr etdi. İlk addım kimi Azərbaycanda sabitlik, nizami ordu yaradan, müstəqilliyin əbədiliyini təmin edən, daxili çəkişmələrə, hakimiyyət uğrunda mübarizələrə, dövlət çevrilişi cəhdlərinə son qoyan Heydər Əliyev ərazi bütövlüyümüzün təminatı üçün də misilsiz xidmətlər göstərərək atəşkəs barədə müqavilə imzaladı. Ulu öndər Heydər Əliyev bildirirdi ki, əgər o illərdə yaranan maddi -texniki baza olmasaydı biz indi xüsusən "Əsrin müqaviləsi" ilə bağlı addımları ata bilməzdik. Bu gün dünyanın maraq göstərdiyi Cənub Qaz Dəhlizi, TANAP, TAP, Bakı-Tbilisi-Qars kimi enerji, nəqliyyat layihələri ilə bağlı xoş sözlər deyilməzdi.

Ulu Öndərin siyasətini layiqincə davam etdirən Prezident İlham Əliyevin səyi nəticəsində möhkəm təmələ əsaslanan müstəqilliyimiz, iqtisadi, siyasi, demokratik inkişafımız artıq dünya birliyi tərəfindən dəstəklənir və Azərbaycan qüdrətli dövlət kimi tanınır.

AŞPA, ATƏT, İƏT kimi nüfuzlu beynəlxalq təşkilatlarda mövqeləri möhkəmlənən Azərbaycanın 155 səslə BMT Təhlükəsizlik Şurasına qeyri- daimi üzv seçilməsi, ən nüfuzlu beynəlxalq təşkilatlarda təmsil olunması, söz sahibi səlahiyyətləri qazanması bir daha təsdiqlədi ki, düzgün siyasət əsasında gələcəyini müəyyənləşdirən dövlət kiçik olsa belə möhtəşəm vəzifələri yerinə yetirməyə qadirdir.

"Azərbaycan dinamik ölkədir. Azərbaycan güclü ölkədir. Bizim dostlarımızın sayı artır. Amma istəməyənlər də var və olacaqdır. Ancaq onların ayağımıza dolaşması bizi seçdiyimiz bu yoldan döndərə bilməz" söyləyən, "Bu gün Azərbaycan dövləti möhkəm əsaslar, milli maraqlar üzərində qurulub. Bizim milli ideologiyamız, azərbaycançılıq fəlsəfəsi bütün cəmiyyəti birləşdirir. Müstəqil Azərbaycan dövləti möhkəm milli dəyərlər üzərində qurulubdur. Bizim güclü iqtisadi dayaqlarımız var. İqtisadi potensial həm iqtisadi, həm də siyasi müstəqilliyimizi şərtləndirir. Beynəlxalq aləm Azərbaycanın dünyadakı rolunu qiymətləndirir və bizə çox böyük dəstək verir" deməklə dünyada möhkəmlənən mövqeyimizi xarici siyasətimizin təntənəsi adlandıran Prezident İlham Əliyev sabaha inamla baxmaqda tamamilə haqlıdır.

Ölkəmizdə bütün işlər müsbət istiqamətdə davam edir.

Dövlət siyasəti milli maraqlar üzərində qurulub. "Milli maraqlar, Azərbaycan xalqının maraqları bizim üçün hər şeydən üstündür. Biz öz gələcəyimizi bunda görürük. Müstəqil siyasətin aparılması həm ölkədəki vəziyyəti daha da sabitləşdirir, eyni zamanda, dünya miqyasında Azərbaycan etibarlı tərəfdaş kimi tanınır. Bizim sözümüzün çəkisi var və bizim rolumuz həm regionda, həm qitədə, həm də dünyada artmaqdadır" sözləri ilə Azərbaycana qarşı qərəzli qüvvələrin bütün təxribat və böhtan kampaniyalarının heç bir nəticə verməyəcəyini bildirən cənab İlham Əliyev bir daha qətiyyətli lider olduğunu təsdiqləyir. Ölkəmizdə ictimai proseslər müsbət istiqamətdə inkişaf edir, vətəndaş cəmiyyəti tam formalaşıb. Daxili siyasətlə bağlı konkret proqramlar həyata keçirilir. Mətbuat, söz, siyasi fəaliyyət , sərbəst toplaşmaq, vicdan, din azadlığı tam şəkildə təmin edilir. Beynəlxalq təşkilatlarla əlaqələr yüksək səviyyədədir. Ordu quruculuğu prosesi davam edir. Azərbaycanda indi sənayeləşmə prosesi gedir, aqrar sahədə islahatlar aparılır. Həmçinin güclü rəqabətqabiliyyətli ixrac potensialı yaradılır.

"İndi bütün səylərimiz ona yönəlib ki, bizi Gürcüstanla birləşdirən Cənubi Qafqaz boru kəmərinin genişləndirilməsini və TANAP-Trans-Anadolu layihəsinin inşasını vaxtında, bəlkə də vaxtından əvvəl təmin edək. Məncə, biz qarşımıza qoyduğumuz hədəflərə vaxtında, bəlkə də daha tez çatacağıq. Eyni zamanda, ümid edirəm ki, TAP - Transadriatik layihəsinin qarşısında da heç bir süni əngəl meydana çıxmayacaq. Çünki əgər belə əngəl olarsa, o zaman əlbəttə ki, burada udan tərəf olmayacaq. Biz bundan sonra da inkişaf yolu ilə gedəcəyik" söyləyən Prezident İlham Əliyev vurğulayır ki, inkişafın əsası bizim müstəqilliyimizdir. Müstəqilliyimiz bizim ən böyük dəyərimizdir, ən böyük sərvətimizdir. Biz müstəqilliyi qoruyuruq və qoruyacağıq.

**Xuraman İsmayılqızı,**
***"İki sahil"***